# KÜRD DÎPLOMAT

xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

№ 18 (309) 1-7 İyun, Hezîran, sal 2015
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti: / Hêjaye: 40 qəpik


Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu



Səh. 2

**İlham Əliyev birinci Avropa Oyunları Əməliyyat Komitəsinin baş ofisində yaradılan şəraitlə tanış olub**



Səh. 3

**"Kürdüstan siyasi münaqişələrin həll ediləcəyi bir meydan deyil"**



Səh. 7

**"SEHRLİ NAFTALAN" HEYƏTİNİN ŞƏFQƏTİ "NAFTALAN"DAN DA ŞƏFALIDIR!**




Səh. 4

**ŞƏDDADİ KÜRD DÖVLƏTİ**



Səh. 5

**Daşkəsəndə 28 May Respublika günü ilə bağlı bayram tədbiri keçirildi**



Səh. 9

**Milîsên şîe nêzîkî salekê ye nikarin wî gundê Kerkûkê rizgar bikin**



Səh. 10

**Mela Bextiyar: Tirkiyê yan Ispaniya ya Rojhilat yan jî Misra Ereb**

**Jinên YNK`yî stûna serkeftina çiya û bajaran e** Səh. 8

**Курды своими голосами могут на выборах сместить правительство Турции** Səh. 14

**Sabunçu rayonunda "Tarixi şəxsiyyətlərimizə sahib çıxaq" layihəsi çərçivəsində konfrans keçirildi** Səh. 5

**Ji bo mîtînga HDP'ê bi sed hezaran kes diherikin Kazliçeşmeyê** Səh. 8

**Губернатор Киркука: США и региональные державы поддерживают Киркук как самостоятельную область** Səh. 15

**Kürd partiyası Ankaranı yeni böhranla hədələdi** Səh. 3



Səh. 11s

**Bayik: Hiştina HDP di bin bendê de îlankirina şer e**



Səh. 13

**Selahaddin Demirtaş: Kürd'üm, Müslüman'ım..**




Səh. 12

**Kerkük Kürdistan'a Bağlandı**



Səh. 11

**Baluken: Em hemû bi hev re dê qesra Erdogan têk bibin**

# İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə



ziyarət edib. Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu. Azərbaycan Respublikasının dövlət himni səsləndirildi. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın tarixinə şanlı hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurmağı qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib. Doxsan yeddi il əvvəl mayın 28-də Tiflisdə qəbul edilmiş "İstiqlal Bəyannaməsi"ndən – "Əqdnamə"dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirib. XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıb. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüb, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar edib. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoyub. Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı bu şərəfli tarixi - 28 Mayı Respublika Günü kimi qeyd edir.

# İlham Əliyev birinci Avropa Oyunları Əməliyyat Komitəsinin baş ofisində yaradılan şəraitlə tanış olub

Prezident İlham Əliyev və xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva "Bakı-2015" Əməliyyat Komitəsinin baş ofisində yaradılan şəraitlə tanış olublar.

Azərbaycanın gənclər və idman naziri, "Bakı-2015" birinci Avropa Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov və əməliyyatlar üzrə baş direktor Saymon Kleq ofisdə yaradılan şərait barədə dövlətimizin başçısına və xanımına məlumat verdilər.



Bildirildi ki, Bakıda keçiriləcək birinci Avropa Oyunlarına hazırlıq üçün cəmi iki il yarım vaxt ayrılmasına baxmayaraq, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın sədrlik etdiyi Təşkilat Komitəsinin, eləcə də Əməliyyat Komitəsinin səmərəli fəaliyyəti nəticəsində yarışların yüksək səviyyədə keçirilməsi üçün görülən işlər artıq başa çatmaq üzrədir. Birinci Avropa Oyunları ilə əlaqədar bütün nəqliyyat, qeydiyyat, informasiya, təhlükəsizlik və digər əməliyyatlar bu mərkəzdən idarə olunacaq. Mərkəzdə yerli və xarici mütəxəssislərin yüksək səviyyədə xidmət göstərmələri üçün hər cür şərait yaradılıb. Ümumilikdə, Komitədə yerli və xarici mütəxəssislərdən ibarət 1500-ə yaxın işçi çalışır.

Atletlərə xidmət və idman şöbəsi ilə tanışlıq zamanı bildirildi ki, Oyunlarda iştirak edəcək bütün idmançıların, məşqçilərin yerləşməsi və lazımi idman avadanlığı ilə təmin edilməsi, həmçinin onların təmsil olunduqları ölkələrin Milli Olimpiya komitələrinin rəsmilərinin qarşılanması və yerləşdirilməsi buradan idarə ediləcək.

Texnoloji Əməliyyatlar Mərkəzi və texnoloji dəstək şöbəsi də birinci Avropa Oyunlarına tam hazırdır. Oyunların keçiriləcəyi bütün obyektlərdə istifadə ediləcək texnoloji avadanlıq və Oyunların yayımı da buradan idarə olunacaq. Bütün bu işlər Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə aparılır.

Dövlətimizin başçısı və xanımı birinci Avropa Oyunlarının keçiriləcəyi məkanlar və ümumi marşrutun əks olunduğu xəritə ilə də tanış oldular. Oyunlar zamanı təhlükəsizlik məsələləri də yüksək səviyyədə həyata keçiriləcək.

Birgə Təhlükəsizlik Əməliyyatları Mərkəzi ilə tanışlıq zamanı məlumat verildi ki, ilk Avropa Oyunlarında qitə ölkələrindən minlərlə idmançı bu tədbirdə iştirak edəcək. Atletlərlə birgə Oyunları izləməyə gələcək çoxlu sayda tamaşaçı və turist axını da gözlənilir. Ən əsası isə həmin idmançıların və tamaşaçıların təhlükəsizliyinin təmin edilməsidir. Ümumilikdə, həm yarışların keçiləcəyi arenalarda, həm də Avropa Oyunlarına daxil olan marşrutlar üzrə 2400 kamera quraşdırılıb. Bütün təhlükəsizlik tədbirləri də bu Mərkəzdən idarə ediləcək. Burada hüquq mühafizə orqanlarının hər birindən nümayəndələr olacaq. Bütün bunlar Avropa Oyunları ilə bağlı ölkəmizə gələn qonaqların rahatlığını təmin etmək baxımından önəmlidir. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Oyunlar Əməliyyatlarına Dəstək Mərkəzi ilə tanış oldular. Burada birinci Avropa Oyunları Əməliyyat Komitəsinin bütün şöbələrinin rəhbərləri fəaliyyət göstərəcəklər. Əməliyyatların yüksək səviyyədə həyata keçirilməsi üçün mərkəz 24 saat işləyəcək. Artıq ilk Avropa Oyunlarının açılışına az vaxt qalıb. Çox qısa müddətdə görülən işlər bir daha təsdiqləyir ki, ilk Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmizdə yaşanan Olimpiya hərəkatına verilən dəyərin təzahürüdür. Bu möhtəşəm hadisə həm də Azərbaycanda idman sahəsində yaşanan inkişaf proseslərinə beynəlxalq miqyasda göstərilən marağın nümunəsidir. Son dərəcə maraqlı, qədim tarixi və zəngin mədəni dəyərləri olan Azərbaycanın Avropanın həyatında baş verəcək ilk belə hadisəyə ev sahibliyi etməsi təbii ki, həm də son illərdə ölkəmizin idman sahəsində qazandığı uğurlardan qaynaqlanır. Bu, bir daha təsdiqləyir ki, dörd ildən bir keçiriləcək Avropa Oyunlarının standartları məhz Azərbaycanda müəyyən olunacaq.

İyunun 12-dən 28-dək keçiriləcək birinci Avropa Oyunlarında 49 ölkədən 6000-dən artıq atlet idmanın 20 növü üzrə mübarizə aparacaq. İlk Avropa Oyunları Bakıda 21 məkanda keçiriləcək. Avropa Oyunları Əməliyyat Komitəsinin baş ofisində yaradılan şərait bu idman tədbirinin yüksək səviyyədə keçiriləcəyinə bir daha təminat verir.

Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Oyunlarda Azərbaycan idmançılarının istifadə edəcəkləri geyimlər barədə də məlumat verildi.

Sonda xatirə şəkli çəkdirildi.

# İlham Əliyev Misirin Cənubi Sinay əyalətinin qubernatorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev Misir Ərəb Respublikasının Cənubi Sinay əyalətinin qubernatoru Xaled Foudanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı qubernator Xaled Foudanın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu olacağına və ölkəmizlə yaxından tanışlıq üçün yaxşı imkan yaradacağına əminliyini bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında həm ikitərəfli, həm çoxtərəfli və eləcə də regionlararası əməkdaşlıq əlaqələrinin yüksək səviyyəyə qaldırılmasının önəmini vurğuladı və bu əlaqələrin inkişaf etdirilməsinin daim diqqət mərkəzində saxlanılmasının zəruriliyini bildirdi. Xalqlarımızın bir-birinə böyük rəğbət bəslədiyini deyən dövlətimizin başçısı əməkdaşlığımızın yeni istiqamətlərinin müəyyənləşdirilməsi baxımından da



səfərin əhəmiyyətini qeyd etdi.

Cənubi Sinay əyalətinin qubernatoru Xaled Fouda Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, 28 May - Respublika Günü münasibətilə dövlətimizin başçısını təbrik etdi. Xaled Fouda Azərbaycana ilk dəfə səfər etməsinə baxmayaraq, artıq ölkəmizdə gedən sürətli inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi. Misirli qonaq Azərbaycanın regionda aparıcı ölkə olduğunu qeyd edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin dünyada dinlərarası və mədəniyyətlərarası dialoqun genişləndirilməsi, regionda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi işində mühüm rol oynadığını vurğuladı. Birinci Avropa Oyunlarının ilk dəfə olaraq Azərbaycanda keçirilməsini yüksək qiymətləndirən Xaled Fouda 2017-ci ildə İslam Həmrəylik Oyunlarının ölkəmizdə keçirilməsi ilə bağlı qəbul olunmuş qərarın önəmini də vurğuladı.

Dövlətimizin başçısı Prezident Əbdülfəttah əs-Sisinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Misir dövlətinin başçısına çatdırmağı xahiş etdi.

***president.az***

# “Kürdüstan siyasi münaqişələrin həll ediləcəyi bir meydan deyil”



“Kürdüstan siyasi münaqişələrin həll ediləcəyi bir meydan deyil. Hər kəs bunu çox yaxşı bilməlidir”. Axar.az xəbər verir ki, bu açıqlama ilə İraq Kürd Regional Rəhbərliyinin başçısı Məsud Bərzani çıxış edib. O, PKK ilə İran Kürdüstan Demokratik Partiyası (İKDP) arasındakı qarşıdurmaları qınayıb: “Kürdüstan siyasi münaqişələrin həll ediləcəyi bir meydan deyil. Hər kəs bunu çox yaxşı bilməlidir. Mən tərəfləri məsələni böyütməməyə çağırıram. Bu münaqişələr kürdlər üçün intihardır və heç kim bundan bir şey qazanmaz. Problemlər dialoq, müzakirə və qarşılıqlı anlayışla həll olunmalıdır. Bu cür qarşıdurmalar Kürdüstan xalqının dincliyini pozur və gələcəyə dair ümidlərini zəiflədir”. Qeyd edək ki, PKK ötən gün İran Kürdüstan Demokrat Partiyasının peşmərgələrinə hücum edib.

Hadisə İran-İraq sərhədindəki Keleşin bölgəsində qeydə alınıb. Hücum nəticəsində 2 peşmərgə ölüb.

## Bərzani kürd dövləti ilə bağlı son nöqtəni qoydu

“Əgər arxamda dayansanız, elə bu gün müstəqillik elan etməyə hazıram”.

Axar.az xəbər verir ki, bu açıqlama ilə İraq Kürd Regional Rəhbərliyinin sədri Məsud Bərzani çıxış edib. Kürdüstan parlamentinin sədri Yusuf Məhəmməd, vitse-spiker Rəsul Əli, baş nazirin köməkçisi Kubat Talabani, siyasi partiya rəhbərləri, türkmanlar, xristianlar və digər azlıq nümayəndələri ilə görüşən Bərzani onlardan dəstək gözlədiyini bildirib: “Əgər mənə dəstək verib yanımda olsanız və aranızda olan problemləri həll etsəniz, elə bu gün müstəqillik elan etməyə hazıram”. Bərzani həmçinin ABŞ-ın kürdlərin müstəqilliyinə dəstək verdiyini də xatırladıb.




## Kürdlər İraqın təklifini rədd etdi

Peşmərgə qüvvələri İraq Müdafiə naziri Xalid Ubeydinin çağırışına rədd cavabı verib. Axar.az xəbər verir ki, peşmərgə qüvvələrinin baş qərargahından verilən məlumatda



bildirilir ki, kürd qüvvələri İraq ordusu ilə birgə Ənbar vilayətindəki əməliyyatlarda iştirak etməyəcək. Rudav-ın məlumatına görə, kürd rəhbərliyi İŞİD-lə mübarizədə İraq ordusunun kifayət qədər güclü olduğunu və heç bir dəstəyə ehtiyacı olmadığını açıqlayıb. Xatırladaq ki, İraq Müdafiə naziri Xalid Ubeydi bir müddət öncə İŞİD-in işğal altındakı saxladığı Ramadini azad etmək üçün peşmərgə qüvvələri ilə əməkdaşlıq etməyə hazır olduqlarını bildirimişdi.

# Ərdoğanın seçkiqabağı kampaniyası tənqidlər hədəfində

Türkiyədə gələn ay keçiriləcək parlament seçkiləri öncəsi prezident Rəcəb Tayyib Ərdoğanın təbliğat kampaniyası zamanı əlində Quranla və dua mərasimi zamanı ağlayan yerdə şəkilləri yayılıb. Bu isə müasir Türkiyənin banisi Mustafa Kamal Atatürkün dünyəvi ənənələrinə zidd adlandırılaraq, müxalif siyasətçilərin kəskin tənqidi ilə üzləşib. Türkiyə siyasətində din həmişə rol oynayıb. İslamçılar və millətçilərin dindən əvvəllər də simvolizm kimi istifadə etməsi ordunun çevriliş etməsinə yol açmışdı. 1970-ci illərdə Süleyman Dəmirəlin başçılıq etdiyi Ədalət Partiyası hakim partiyanı Quranın nüsxələrini partiya simvolu kimi paylamasına kəskin reaksiya göstərib.

Ərdoğanın Ədalət və İnkişaf Partiyası (AKP) isə müxalif siyasətçilərə qeyri-müsalman damğası vurub.

Ərdoğan üçün parlament seçkilərinin nəticəsi böyük əhəmiyyət kəsb edir. Belə ki, o, parlamentə əsaslanan hökumətin prezidentin hakimiyyətinə verilməsi üçün konstitusiyada dəyişiklik etməyə çalışır. Bunun üçün ona parlamentdə əksəriyyət əldə edilməsi çox vacibdir. Keçən həftə kürdlərin əksəriyyət təşkil etdiyi Batman və Siirt şəhərlərində keçirilən seçkiqabağı kampaniyaları zamanı Ərdoğan Quranın kürd dilindəki nüsxəsini qaldırıb. Quranın kürd dilinə tərcüməsi 5 il vaxt



aparıb. Quranın kürd dilinə ilk rəsmi tərcüməsini kürdlərə təqdim edən prezident Türkiyənin cənub-şərq regionunda hakim partiyaya seçkilərdə Xalq Demokratik Partiyasının böyük təhlükə təşkil etməsinin dinlə heç bir əlaqəsi olmadığını deyib. HDP Ərdoğanın konstitusiya islahatlarına ən böyük maneə ola bilər. Partiya parlament seçkilərində 10 faiz səs qazansa, konstitusiyada dəyişiklik planına qarşı çıxa bilər.

Ərdoğan Cümhuriyyət Xalq Partiyasını dini etinasızlıqda günahlandırır. Partiyanın lideri Kamal Kılıncdaroğlu xalqın dini dəyərləri və milyonlarla insanın müqəddəs kitabı olan Qurandan istifadə etməsini tənqid edib.

Bu gün Adana və Mersində HDP-nin qərargahlarında partlayışlar bir neçə adamın yaralanmasına səbəb olub. Partiya hökumətin hücumları qınamasına baxmayaraq, Ərdoğan və onun hakim partiyasının hücumların məsuliyyətini daşıdığını bildirib.

Keçən həftə Türkiyə prezidenti və birinci xanım Əminə Albaniya səfəri zamanı məsciddə dini şeir oxunarkən ağlamışdı. Bu yaxınlarda Ərdoğan Çanaqqala zəfərinin 100-cü ildönümündə də şeir oxuyub. Dövlətə məxsus televiziya kanalları onun şeir oxumasını dəfələrlə təkrar edib. Ərdoğanın seçki ittihamlarından biri onun Qərbi islamafobiyada günahlandırmasıdır.

Bu yaxınlarda Türkiyənin dövlət başçısı Qərbə qarşı hücumlarının birində Avropa İttifaqını Misir prezidenti Məhəmməd Mursinin ölüm hökmünə lazımi reaksiya göstərməməkdə ittiham edib. Prezidentin seçkiqabağı kampaniyalarının tənqidçiləri iyunun 7-də keçiriləcək seçkilərdən sonra hakim partiyanın daha artıq islamçılıq yolu ilə ölkəni idarə edəcəyi barədə xəbərdarlıqla çıxış edir.

## Qərb İraqı bölür: Kürdlər üçün Ərbil nümayəndəliyi

Avropa Birliyi (AB) İraq Kürdüstan Muxtariyyətinin mərkəzi Ərbildə nümayəndəlik açacaq. Axar.az xəbər verir ki, bu barədə AB-nin İraqdakı səfiri Yana Hybaskova Kürd



Regional Rəhbərliyinin sədri Məsud Bərzani ilə görüşdə məlumat verib. O, AB-nin kürd bölgəsi ilə sıx əlaqədə olmaq istədiyini bildirib: “AB kürd bölgəsi ilə əlaqələrini inkişaf etdirmək istəyir. Bunun üçün də ilk addım olaraq, Ərbildə nümayəndəlik açılacaq. İraqda insanların həyat şəraitinin yaxşılaşdırılması üçün əlimizdən gələni edəcəyik”.

## “Wall Street Journal”: “Müstəqil Kürdüstana az qaldı”

Amerikanın nüfuzlu nəşrlərindən olan “Wall Street Journal” Osmanlı




imperiyasından sonra yaradılan süni sərhədlərin dağılmaq üzrə olduğunu yazıb. Publika.az xəbər verir ki, qəzet məqaləsində müstəqil Kürdüstanın da yaxın zamanlarda qurulacağını qeyd edib. Məqalədə 4 hissəli Kürdüstanla yanaşı, İraq və Suriyada məzhəb qarşıdurmaları nəticəsində yarana biləcək Ələvistan, Xəlifəlik və İraq şiə dövlətləri kimi bir çox yeni güc mərkəzinin adı çəkilib. Süni sərhədlərin ömrünün başa çatdığını qeyd edən Amerika nəşri Suriya və İraqa keçən əsrin əvvəllərində verilən şəklin də saxlanılmasının mümkün olmayacağını vurğulayıb. Məqalədə bildirilir ki, İŞİD məhz bu süni xəritələrin nəticəsi olaraq ortaya çıxıb.

“Wall Street Journal”ın yazdığına görə, Osmanlı ilə imzalanan "Sevr" anlaşması müstəqil Kürdüstan dövlətini əhatə etsə də, razılaşmanın bu müddəası yerinə yetirilməyib. Məqalədə Orta Şərq üzrə analizləri ilə tanınan Karim Sadjapourun “Qarşıdakı 20 il ərzində Kürdüstan adlanan bir dövlət yaranmazsa, çox böyük bir sürpriz olar” sözlərinə yer verilib. Kürdlərin Türkiyə, İraq, İran və Suriyada yaşadığını qeyd edən yazar “kürdlər onsuz da İraq hökumətinin çətiri altında virtual müstəqilliyini yaşayır. Hazırda da Suriyada üç kanton qurublar” yazıb.

## Kürd müğənnidən İŞİD-ə yeni bomba

Kürd müğənni Helen Abdulla İŞİD terror təşkilatına qarşı maraqlı bir klip çəkdirib. Publika.az xarici mediaya istinadən xəbər verir ki, “İnqilab” adını verdiyi yeni klip “kürd



torpaqları”nda İŞİD ilə aparılan döyüşdən bəhs edilir. Klipdə tankın içindəki mərminin üzərinə qırmızı rənglə ingilis dilində “İnqilab” sözü yazan Helen Abdulla daha sonra fişəngi İŞİD silahlılarının üzərinə atır. Hazırda 26 yaşında olan və İraqdan 18 yaşında ikən ABŞ-a köçən Helen Abdulla həyatına təhlükə olsa da geri dönüb. O, daha əvvəl çəkdiyi erotik məzmunlu klipə görə İŞİD tərəfindən ölümlə təhdid olunmuşdu.

# Kürd partiyası Ankaranı yeni böhranla hədələdi

Türkiyə Xalqların Demokratik Partiyası (HDP) hakimiyyəti yeni bir böhranla hədələyib. Publika.az Türkiyə mediasına istinadən xəbər verir ki, HDP-li millət vəkili Pervin Buldan partiyanın seçki baryerini keçə bilməyəcəyi halda yeni bir böhran yaranacağını bildirib.

O, xüsusilə Hakkari, Diyarbəkr və Şırnak vilayətlərində insanların bu vəziyyəti qəbul etməyəcəyini söyləyib. “Seçki baryerini keçə bilməyəcəyimiz yeni böhran anlamına gələcək. Məsələn, Hakkari 3 millət vəkili çıxarır. Seçicilərin isə 90 faizi HDP-yə səs verir. Seçki baryerini keçməyəcəyimiz halda namizədlərimizin əvəzinə AKP-nin namizədləri parlamentə gedəcək. Hakkari xalqı qəbul etməz. Mən də qəbul etmərəm. Eyni zamanda, Diyarbəkr və Şırnakdakı seçici də bunu qəbul etməz. Bununla da yeni böhran yaranar və növbədənkənar seçkilərinə gedə bilərik”, - İstanbulun 3-cü bölgəsindən millət vəkilliyinə namizəd olan Pervin Buldan deyib. Qeyd edək ki, Türkiyədə seçki baryeri 10 faiz müəyyən edilib.



## PKK ilə kürd silahlıları arasında qarşıdurma baş verib

İraqda Kürdüstan Demokrat Partiyasının (KDP) silahlıları ilə PKK terror təşkilatı üzvləri arasında qarşıdurma yaranıb. İddiaya görə, KDP silahlıları ilə PKK-çılar arasında mayın 28-də gecə baş verən qarşıdurma nəticəsində bir KDP silahlısı yaralanıb. Atışma İran sərhədinə yaxın Helgurt dağında başlanıb.

# ŞƏDDADİ KÜRD DÖVLƏTİ

**(Əvvəli ötən sayımızda)**

Məhəmməd Dəbilə qayıtdıqdan sonra yeni bir hücuma məruz qalır. Bu dəfə Ermənistan çarı Aşot ibn Abbas Dəbilə hücum edir. Aşot Gürcüstan və Ermənistanın digər hissəsində hökmranlıq edir və şahənşah titulu daşıyırdı. 951-ci ildə atası Abbas öldükdən sonra o, hakimiyyətə keçmişdi. (Brosset. Histoire de l Armenie. 1847, p. 478-481). Aşot öz hakimiyyətini Syuni vilayətinə də qəbul etdirmək istəyirdi. (Vardan. Göstərilən əsəri. səh. 114. Vardanın yazdığına görə Aşot 978-ci ildə ölmüş, onun Sumbat, Qağik və Qurgen adlı üç oğlu qalmışdı. O, 985-ci ildə öləndən sonra hakimiyyətə Qağik keçmişdi. Qağik Syuni çarı Saakın




qızı ilə evlənib, onunla qohum olmuşdu. ). O, Dəbili tutmaq arzusu ilə qoşun toplayıb Məhəmmədin üstünə hücum çəkmişdi. Aşotla Məhəmməd arasında baş verən müharibədə Məhəmməd qələbə çalır. Aşotun qoşunları qaçmağa üz qoyur. Məhəmmədin süvariləri onları təqib edərək böyük qənimətlə qayıdırlar. bu qələbədən sonra Məhəmmədin vəziyyəti yaxşılaşır. (V. Minorski. Şəddadilər, səh. 4). o, Dəbilin mühafizəsinə çox əhəmiyyət verirdi. Dəbili mühafizə etmək üçün o deyləmlilərdən də istifadə edirdi. Lakin bu deyləmlilər sonra ona xəyanət etmişdilər. 342(953/4)-ci ildə Salar Mərzuban həbsdən qaçaraq Ərdəbilə gəldikdə birinci olaraq Deysəm ibn İbrahimin təhlükəsini yox edir və 343 (954/5)-cü ildə Dəbili tutmaq üçün Məhəmmədin üstünə deyləmi süvarilərindən ibarət qoşun göndərir. Mərzuban tərəfindən göndərilən qoşunlar Dəbili mühasirə etdikləri zaman burada olan deyləmilər Məhəmmədə xəyanət edərək Mərzubanın qoşunlarına kömək edirlər. Məhəmməd sərvətlərini götürüb, yaxın adamları ilə Busfurrcan (Vaspurakan) hakiminin yanına gedir və orada özünə sığınacaq axtarır. Beləliklə, o Dəbil hakimliyindən əl çəkir. Məhəmməd Busfurrcan hakiminin razılığı ilə ailəsini, uşaqlarını və şeylərini onun yanında qoyub kömək almaq məqsədilə Rum padşahının yanına gedir. Lakin ondan heç bir kömək ala bilməyən Məhəmməd geri qayıdır və 344 (955/6)-cü ildə ölür. (V. Minorski . Şəddadilər, səh. 6 ). Məhəmməd ibn Şəddad öldükdən sonra onun Ləşgəri Əbülhəsən Əli, Mərzuban və Fəzl adlı üç oğlu qalmışdı. Onların əlindən Dəbil şəhərinin çıxmasına baxmayaraq Ləşgəri 344 (955/6)-cü ildə öz tayfalarının başçısı keçir və həmin ildə Dirzur (Veyzur) hakiminin yanına gedərək 354 (965)-cü ilə qədər onun yanında qalır. Ləşgərinin kiçik qardaşı Fəzl isə Diyarbəkirə Seyfəddövlə əl-Həmdaninin qulamı Seyfinin yanına gedir. 356 (966/7)-cı ildə Seyfi Diyarbəkrdən öz ağası tərəfindən qovulduğu üçün Fəzl qardaşlarının yanına qayıdır. Lakin o qardaşların yaında uzun müddət qala bilməyib Azərbaycan hakimi İbrahim ibn Mərzubanın yanına gedir, oradan da öz xidmətçiləri və adamları ilə bərabər Gəncəyə gəlir(Yenə orada, səh. 7-8). O zaman Gəncə Salarilər dövlətinin tərkibində idi. Gəncəni Salarilər dövlətinin hakimi Əli ət-Tazi adlı bir nəfər idarə edirdi. Ət-Tazi Gəncəyə gələn Fəzli olduqca yaxşı qəbul etmişdi. Hətta ət-Tazi Salar İbrahimə yazaraq Fəzlə şəhərin gəlirindən xüsusi maaş təyin etmək istəyirdi. Fəzl öz adamları ilə şəhəri mühafizə edirdi. Çünki bu zaman köçəri və sair tayfalar Gəncəyə tez-tez basqın edirdilər. V. Minorskinin yazdığı qeydə görə siyavurdilər Şəmkür, Ağstafa və Tovuz çayları yaxınlığında, Gəncədən Tiflisə gedən yolun ətrafında yaşamış və Gədəbəy tərəfdə mis çıxarmaq və s. ilə məşğul olmuşlar. (V. Minorski. Qafqaz tarixi haqqında etüdlər. səh. 26). V. Minorskinin fikrincə, siyavurdilər əd-Dudanilərin qalıqlarıdır. Onlar Şimali Dağıstanda Alan keçidinə yaxın Andi –Göysu yaxınlığında yaşayaraq həmişə Alazan tərəfə basqın edirdilər. (Yenə orada, səh. 75, 76). Bəlazuri yazır ki, Ənuşirvan Arranda Şəkin, Kəmibran və əl-Dudaniyə keçidini düzəltdi. Dudanilər tayfası Dudin ibn Əsəd Xüzeymə əl-Dərzuqiyə nəslindən əmələ gəlmişdir. (Baladzori. Kitab futuh al-Buldan. Liber expugnations regionum Ed. M. J. de Goeje, Leiden 1870, səh. 194-195). Məsudi yazır ki: "Dudanilər Qafqaz sıra dağlarının şimal qismində ləkzlərlə yanaşı yaşayırlar. Onlar bütpərəsdirlər. Şirvana tabe deyildirlər. " (Məsudi. Mürüc əz-zəhəb. Paris 1861, 1877, II cild. səh. 56). Bəlazuri və Məsudinin bu məlumatından aydın olur ki, dudanilər Şimali Dağıstanda "Sahibi Sərir" (taxt-tac sahibi) torpaqlarında yaşamış və Qafqaz sıra dağlarında bunların adına olan keçidi aşaraq hələ çox qədimdən Azərbaycan basqın edirdilər. X əsrdə bunların qalıqları , Münəccimbaşının göstərdiyi kimi, "siyavurdiyə" adı ilə Şəmkür yaxınlığında məskən salmışdı. 400 süvaridən ibarət siyavurdilər Gəncə darvazası qarşısına gələrək şəhərə basqın etmək istəyirdilər. (V. Minorski. Şəddadilər, səh. 7) Gəncə hakimi Əli ət-Tazi belə bir təhlükəli dövrdə Fəzl ibn Məhəmmədə müraciət edərək, düşmənləri qovmaq üçün ondan kömək istədi. Münəccimbaşı yazır ki, bu zaman Fəzl öz adamları ilə basqınçıların üstə getdi, onlarla şiddətli vuruşdu. basqınçıları qaçmağa məcbur etdi və onları bir qədər təqib edərək salamat geri qayıtdı. (Yenə orada. ). Şəhər əhalisi bu hadisədən sonra Fəzlə arxalanaraq ona hörmət etməyə başladı. Beləliklə Fəzl 359 (969/70) –cu ilə qədər Gəncədə yaşadı. Lakin o, Gəncədən Ərdəbilə getmək istədiyi zaman Gəncə hakimi onun qardaşlarının yanına getməsini və qardaşların birinin Gəncəyə sahiblənməsini Fəzlə məsləhət gördü. Fəzl bu fikrə meyl göstərdi. O, qardaşı Ləşgəriyə çapar göndərərək, onu bu xəbərlə tanış edib, Gəncəyə dəvət etdi. Lakin bu xəbər Ləşgərini qəzəbləndirdi və qardaşını təqsirləndirərək onun dəvətini qəbul etmədi. Fəzl qardaşını Gəncəyə gətirmək üçün hiyləyə əl atdı. Öz xidmətçisini Ləşgərinin yanına göndərib bərk xəstə olduğunu ona xəbər verdi və Gəncəyə gəlməsini xahiş etdi. Qardaşının xəstə olduğunu eşidən Ləşgəri öz xidmətçiləri ilə bərabər təcili yola düşdü. . Lakin Gəncəyə yaxın kəndlərin birində dayanaraq, öz xidmətçilərindən birini Fəzlin yanına göndərdi. Fəzl isə qardaşını qarşılamağa getdi. Münəccimbaşının "Cami əd-düvəl" əsərinin "Şəddadilər" fəslində yazılır ki, qardaşlar görüşdülər və ağlaşdılar. Ləşgəri Fəzldən soruşdu ki, indi sən yaxşısan, ancaq de görək bizim ürəyimizə belə bir yara vurmağa səni hansı ağılsız vadar etmişdir. Fəzl ona cavab verdi ki, şəhərin əhalisi öz aralarında razılaşaraq öz xahişləri ilə bizə tabe olurlar. (V. Minorski. Şəddadilər, səh. 14). "Şəddadilər" fəslində iki qardaş arasında gedən söhbət dialoq şəklində qeyd olunur. Burada göstərilir ki, Ləşgəri qardaşının yuxarıda dediyi sözlərə etiraz edərək deyir: "Ey mənim qardaşım sən bilirsən ki, Dəbildə bizim atamız necə etdi. Biz iyirmi ildir ki, dünyanı dolanırıq, heç bir yerdə bizi qəbul etmirlər, biz yeməkdən zövq almırıq, əgər biz bu ölkəyə getsək onun sahibi ilə birləşməliyik, o zamzn bizi mühasirə edib kiçik bir dəstə olduğumuz üçün məhv edə bilərlər. Bizi onun əlindən kim qurtara bilər. Belə şəraitdə bizə verilən bir çox vədlər də yalan ola bilər. Biz, artıq bundan dərs almışıq, onlar bizim üçün kifayətdir". Fəzl qardaşının cavabında deyir : "Adamın vəzifəsi yüksək məqsədlərə çatmaq üçün çalışmaqdır, əgər o öz məqsədinə çatarsa arzularını həyata keçirər. Əgər onun hərəkətləri məqsədə çata bilməzsə bu onun üçün eyib deyildir". (Yenə orada, səh. 14-15). Ləşgəri qardaşının fikirlərini bəyəndi və onun xahişini qəbil etdi. Fəzl isə geri qayıdib Gəncə darvazasına gəldi, şəhərin başçılarını toplayaraq onların andını təkrar etdirdi. Bu zaman şəhər rəisi tacir Yusif əl-Qüzzaz idi. (Yenə orada, səh. 15). Fəzl Yusif əl-Qüzzaz və onun tərəfdarları ilə saziş bağladı. Onlar and içdilər ki, əgər Ləşgəri və Fəzl şəhərə girmək üçün hərəkət etsələr, o zaman darvazanı onların üzünə açacaq və Salarilərin şəhərdə olan valisini həbs edərək onlara verəcəklər. Onların arasında şəhəri təslim etmək üçün bağlanan saziş qurtardıqdan sonra Yusif əl-Qüzzaz şəhərin igid gənclərini çağırıb onları silahlandırdı və valinin sarayına gedib orada valini həbs etdilər. (V. Minorski. Şəddadilər, səh. 15). Bunlar



sonra şəhər darvazasını açdılar, Ləşgəri ibn Məhəmməd şəhərə daxil olaraq öz yerini və əmirlik taxt-tacını tutdu. (Yenə orada). Beləliklə, Əbülhəsən Əli Ləşgəri 360 (970/1) –cı ildən Gəncədə müstəqil hakimiyyətə başladı. (Yenə orada). Münəccimbaşı vasitəsilə bizə çatan əsərlərdə o zaman öldürülən Gəncə valisini adı çəkilmir. Lakin Vardan əsərinin sonunda yazır ki: "Sonralar onlar(Məhəmmədin oğulları-M. Ş. ) Gəncə əmiri Əl-Əzizlə qohum oldular, onu öldürdülər, Gəncəni tutdular və ona sahib oldular. Böyük oğlu Parzuan(Məhəmmədin böyük oğlu Ləşgəri idi, səhv olaraq burada ikinci oğlunun adı Parzuan (Mərzuban) yazılmışdır. ) tezliklə öldü, onun yerinə Salardan Bərdəni və Şəmkürü alan ortancıl qardaş Lelkari(Ləşgəri) keçdi". (Vardan. Göstərilən əsəri, səh. 125) Vardanın bəzi səhvləri və dolaşıq halda verdiyi məlumatından aydın olur ki, Gəncədə öldürülən Salarilər dövlətinin əmiri əl-Əziz adlı şəxs imiş, bundan başqa aydın olur ki, Ləşgəri Gəncədə hakimiyyət başına keçdikdən sonra Bərdə və Şəmkür şəhərlərini salarilərdən almışdır. Münəccimbaşı göstərir ki,



Ləşgərinin Gəncədə hakimiyyət başına keçməsi Ərdəbildə İbrahim ibn mərzubana yetişdikdə o, 361 (971/2)-ci ildə qoşunla hərəkət edib.

Gəncəni mühasirə etdi, Ləşgəri ilə vuruşdu, elə bir hadisə baş verdi ki, onu uzun zaman danışmaq lazım gəldi. İbrahim qələbə çala bilmədiyini gördükdə Ləşgəri ilə saziş bağlayıb. Gəncə darvazasından Ərdəbilə qayıtdı.

# Daşkəsəndə 28 May Respublika günü ilə bağlı bayram tədbiri keçirildi

28 may 2015-ci il tarixdə saat 11-00-da Daşkəsən rayonunda 28 May



Respublika günü münasibətilə keçirilən ümumrayon tədbirinə daşkəsənlilər ciddi hazırlıqla gəlmişdilər. Belə ki, rayon İcra Hakimiyyəti Başçısının təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, idarə, müəssisə və təşkilatlarda, inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə, ümumtəhsil məktəblərində, mədəni-maarif müəssisələrində toplantılar, dəyirmi masalar, bilik yarışları təşkil olunmuş, dinləmələr aparılmışdır. Ümumrayon tədbirində Daşkəsən Rayon İcra Hakimiyyətinin məsul işçiləri, YAP fəalları, rayonun idarə, müəssisə və təşkilat rəhbərləri və rayon ictimaiyyəti iştirak edirdi.

Tədbiri giriş nitqi ilə açan Daşkəsən Rayon İcra Hakimiyyəti başçısı cənab Əhəd Abıyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını tarixi keçmişimizin şanlı səhifələrindən biri kimi qiymətləndirdi. Qeyd etdi ki, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq ömrü ərzində bir çox sahələrdə həyata keçirdiyi islahatlarla Azərbaycan tarixində mühüm bir mərhələnin əsasını qoydu. Demokratik dövlət quruculuğu, eləcə də digər sahələrdə atdığı əhəmiyyətli addımlarla qısa müddətdə xalqımızın tarixində silinməz iz buraxdı, milli dövlətçilik ənənələrinin bərpası işində vacib rol oynadı. Azərbaycan yenidən müstəqillik əldə etdikdən, 1991-93-cü illərdə mövcud olan xaos və anarxiya nəticəsində müstəqilliyimizi itirmək təhlükəsi ilə baş-başa qaldığı dövrdə Ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu sahəsindəki misilsiz xidmətləri sayəsində müstəqil Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin taleyini yaşamadı və müstəqillik yolunda dönmədən, inamla irəlilədi. Bu gün bu siyasət Ulu öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. İndi beynəlxalq aləm müstəqilliyinin bərpasından sonra tarixi baxımdan ötən qısa müddət ərzində Azərbaycanın parlaq inkişafını və əldə etdiyi nailiyyətləri izləyir. Məhz dünya şöhrətli prezdentimiz cənab İlham Əliyevin müdrik siyasəti sayəsində Azərbaycan regionda mühim güc və cazibə mərkəzinə çevrilibdir.

Daha sonra çıxış edən natiqlər də milli istiqlal tariximizin şərəfli səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən, qısa vaxt ərzində həyata keçirdiyi islahatlardan, ölkənin demokratikləşməsi və insan hüquqları sahəsində atılan addımlardan, dövlətçiliyimizin möhkəmləndirilməsindən, müstəqil ölkəmizin uğurlarından söhbət açdılar, həmçinin demokratik cümhuriyyətin süqutu səbəblərinə toxundular. Bildirdilər ki, 28 may 1918-ci il Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin ən şanlı səhifəsidir. Müstəqilliyimizin qazanılmasında əməyi olan istiqlal mücahidləri ən böyük hörmət və ehtirama layiqdirlər. İkinci dəfə qazandığımız müstəqilliyin qorunub saxlanılmasında, dövlətimizin möhkəmlənməsində və dünya miqyasında tanınmasında ümummilli liderimiz Heydər Əliyevin misilsiz xidmətləri vardır. Bu gün iqtisadiyyatımızın dinamik inkişafı, regionda və dünyada artan nüfuzumuz, beynəlxalq və mötəbər tədbirlərin ölkəmizdə keçirilməsi və təşkili təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan



siyasətin Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının uğurla davam etdirməsinin məntiqi nəticəsidir.

Ümumrayon tədbiri Daşkəsən rayon mərkəzində konsert proqramı ilə davam etdirilmişdir.

# Qarabağ döyüşçülərinin görüşü keçirildi

Laçın rayonunun Mişni kəndindən olan Qarabağ müharibəsi döyüşçüləri 2015-ci il 24 may tarixdə Bakı şəhəri Qaradağ rayonunun Sahil qəsəbəsində 23 ildən sonra bir araya gəldilər. Sahil qəsəbəsində "Dörd qardaş" sarayında baş tutan bu tədbir Vətənə qayıdış ruhu üzərində təşkil olunmuşdu.

Azərbaycan Respublikasının suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra tədbir açıq elan edildi.

Qeyd olundu ki, Qarabağ müharibəsində Laçın rayonunun Mişni kəndindən 84 nəfər olmaqla Laçın Rayon Polis şöbəsinin və Milli Ordunun tərkibində Laçın, Kəlbəcər, Ağdərə, Füzuli rayonları ərazisində amansız döyüşlərdə iştirak etmiş, onların da iştirakı ilə Laçının 80-dən çox, Ağdərənin Qızılqaya kəndi, Füzuli rayonunun Horadiz qəsəbəsi və digər kəndləri ermənilərdən azad edilmiş, bu döyüşlərdə onların hər biri xüsusi qəhrəmanlıqlar göstərmişlər. Həmin döyüşlərdə Mişni kənd sakinlərindən 3 nəfəri - Ərəstun Kərimov, Habil Həsənov, Vüqar Aslanov şəhid olmuş, 20-dən çoxu yaralanmışdır.



Tədbirdə çıxış edən şəhid övladı Sahil Kərimov Milli Ordunun zabiti olmuş atası Ərəstun Kərimovun Vətən uğrunda şəhidlik zirvəsinə ucaldığını qeyd edərək, onun qanının yerdə qalmayacağına əminliyini bildirdi.

Laçın Rayon Polis şöbəsinin tərkibində döyüşən Mişni kənd sakini Zöhrab Alıyev Fizuli rayonu ərazisində gedən döyüşlərdə göstərdiyi şücaətə görə Ulu öndər Heydər Əliyevin Sərəncamı ilə "Azərbaycan Bayrağı" Ordeni ilə təltif edilmişdir. Ayrı-ayrı döyüşlərdə düşmənə qan udduran Laçın Rayon Polis şöbəsinin tağım komandiri Elşad Qarayevin xidmətləri də misilsiz olmuşdur. Ağır döyüşlərdə dəfələrlə qəhrəmanlıq göstərmiş Elşad Qarayev avtomobil qəzasında faciəli şəkildə həlak olsada onun şücaətindən bu gün də fəxarətlə danışılır. Bildirildi ki, işğal altında olan torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün qorunmasının təmin olunması hər Azərbaycan vətəndaşının ümdə borcudur. Bu baxımdan Laçın Rayon İcra Hakimiyyətinin başçısı Akif Səlimovun "Hər laçınlı ailəsindən orduya bir zabit" devizinin əhəmiyyətini vurğulayan döyüşçülər bu məsələ ətrafında öz fikir və mülahizələrini bildirmiş, bu təşəbbüsü yüksək qiymətləndirmişlər. Hamılıqla vurğulandı ki, yeniyetmə və gənclərin ali hərbi məktəblərə və hərbi liseylərə istiqamətləndirilməsi ilə bağlı Laçın Rayon İcra Hakimiyyətinin başçısı Akif Səlimovun 2013-cü ildə irəli sürdüyü təşəbbüsə də laçınlılar bu gün öz töhfələrini verirlər.

Tədbirdə iştirak edən hər bir döyüşçü döyüş xatirələrindən danışmış, hamı bir nəfər kimi Ali Baş Komandan cənab İlham Əliyevin lazım bildiyi istənilən anda döyüş əmrinə hazır olduqlarını qətiliklə vurğulayaraq müharibənin ön sıralarında olacaqlarını, qələbə gününün çox da uzaqda olmadığına bir daha əminliklərini bildirdilər. Sonda xatirə şəkli çəkdirildi.

# Sabunçu rayonunda "Tarixi şəxsiyyətlərimizə sahib çıxaq" layihəsi çərçivəsində konfrans keçirildi

2015-ci il may ayının 20-də Sabunçu qəsəbəsində yerləşən 311 saylı orta məktəbdə "Tarixi şəxsiyyətlərimizə sahib çıxaq" layihəsi üzrə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun və 311 saylı tam orta məktəbin birgə hazırladığı "Ağa Məhəmməd şah Qacar" mövzusunda konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə 311 saylı məktəbin direktoru Esmira Muradova açaraq AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun bu xeyirxah təşəbbüsünü yüksək qiymətləndirdi və "Tarixi şəxsiyyətlərimizə sahib çıxaq" layihəsinin əhəmiyyətindən, yetişməkdə olan gənc nəslin tarixi şəxsiyyətlərimizi daha dərindən tanımasında böyük rol oynadığını qeyd etdi.

"Tarixi şəxsiyyətlərimizə sahib çıxaq" layihəsi üzrə təşkilat komitəsinin sədri Araz Şamil və 311 saylı məktəbin tarix müəllimi Nəcəfalı Cahangirli öz çıxışlarında hazırki dövrdə xaricdən xüsusi sifarişlə xalqımızın görkəmli tarixi şəxsiyyətlərini gözdən salmaq üçün kompaniyaların davam etdiyi bir dövrdə Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Yaqub Mahmudovun təşəbbüsü ilə belə bir layihənin həyata keçirilməsinə başlanılmasının böyük əhəmiyyət daşıdığını qeyd etdilər.

Konfransda A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, t.ü.f.d., dos. Tofiq Nəcəfli "Qacarların Azərbaycanın siyasi həyatında rolu" adlı məruzəsində Qacarların mənşəyinə aydınlıq gətirdi və XVI-XVIII əsrlərdə Azərbaycanın siyasi tarixində Qacarların mühüm rol oynadığını qeyd etdi. O, bu tayfadan görkəmli sərkərdələrin, diplomatların və dövlət xadimlərinin çıxdığını xüsusi olaraq vurğuladı.

Tarix İnstitutunun aparıcı elmi işçisi, t.ü.f.d. Vidadi Umudlu "Görkəmli Azərbaycan sərkərdəsi və dövlət xadimi Ağa Məhəmməd şah Qacar" adlı məruzəsində Ağa Məhəmməd şah Qacarın




keçdiyi siyasi həyat yolundan, öz dövlətini yaratmaq üçün apardığı əzmkar mübarizə barədə ətraflı məlumat verdi. O, qeyd etdi ki, Ağa Məhəmməd şah Qacar xalqımızın XVIII əsrdə yetişdirdiyi ən görkəmli dövlət xadimlərindən biridir. O, nəinki Azərbaycanda, eləcə də dünya tarixində öz yeri olan tarixi şəxsiyyətlərimizdən biridir. Tarix İnstitutunun şöbə müdiri, t.ü.f.d. Hacı Həsənov "Azərbaycanın görkəmli sərkərdəsi Abbas Mirzə Qacar"adlı məruzəsində Abbas Mirzənin keçdiyi həyat yolu, Qacar ordusunu Avropa qaydasında təşkili və Rusiya-Qacar müharibəsində dövrünün tanınmış Azərbaycan sərkərdəsi kimi göstərdiyi hərbi rəşadətlə bağlı konfrans iştirakçılarına məlumat verdi.

Təhsil Problemləri İnstitunun şöbə müdiri, p.ü.e.d., prof. İntiqam Cəbrayılov, t.ü.f.d. Dilavər Əzimli, f.ü.f.d. Faiq Ələkbərov, kiçik elmi işçi Nazim Xəlilov, tarix müəllimi Dövran Abuzərov, Sabunçu Rayon İcra Hakimiyyəti başçısı aparatının "İctimai-siyasi və humanitar məsələlər" şöbəsinin baş məsləhətçisi Səkinə Həsənova həyata keçirilən layihənin əhəmiyyətindən və konfransda qoyulan mövzunun çox aktual olduğunu qeyd etdilər. Konfransda edilən məruzələr şagirdlər və konfrans iştirakçıları tərəfindən rəğbətlə qarşılandı və məruzəçilərə ünvanlanmış suallara aydınlıq gətirildi.

# NAFTALAN - MİN DƏRDİN DƏRMANI

Naftalan — Azərbaycanın qərb bölgəsində Goranboy rayonunda turistik əhəmiyyətli şəhər. 28 aprel 1967-ci ildən respublika tabeli şəhərdir.

Naftalan barədə hələ XII əsrdə yaşamış dahi Azərbaycan şairi Nizami Gəncəvi özünün yazdığı Xəmsə əsərində yazmışdı. O, indiki Naftalanın yaxınlığında yerləşən Səfi-Kürd adlanan ərazidən neft çıxarıldığını və onun karvanlarla başqa ölkələrə daşındığını bildirirdi. XIII əsrdə yaşamış avropalı səyyah Marko Polo da Azərbaycan ərazisindən keçərkən Naftalan ərazisində müalicəvi yağın quyulardan çıxarılaraq dəvələr vasitəsilə başqa yerlərə daşındığını yazmışdı. 1783-cü ilə kimi burada Naftalan yağı əl ilə qazılmış quyulardan çıxarılırdı. 1890-cı ildə alman mühəndisi və iş adamı E.İ.Yeger Naftalanda sənayə üsulu ilə qazma qurğusu vasitəsilə 250 metr dərinliyə qədər quyu qazaraq orada neft çıxarmağa başladı. Lakin çıxan neftin keyfiyyəti onu heyrətə gətirdi. Buradan çıxan neftin tərkibində heç bir benzin fraksiyalı yox idi və o yanmırdı. İflasa uğramaq ərəfəsində olan alman mühəndis çoxlu adamın dən iş adamı buradakı adamlardan dərmanların hazırlanması təcrübəsini öyərnərək bunun əsasında Naftalanda dərman mazı istehsal edən fabrik tikir. Onun istehsal etdiyi dərmanlar tezliklə bir çox yerlərdə tanınmağa başlayır. Yeger istehsal etdiyi dərmanların sirrini gizli saxlayır və Naftalan nefti əsasında dərman istehsalını monopoliyaya alırdı. XIX əsrin sonu, XX əsrin əvvəlində dünyanın bir çox iri şəhərlərində, həmçinin Londonda, Hamburqda, Qahirədə, Tokioda Azərbaycanda istehsal olunan, lakin alman məhsulu kimi tanıdılan Naftalan dərmanı geniş şəkildə satılırdı.

Naftalan kurortu rəsmən 1935-ci ildən fəaliyyət göstərir. 1957-ci ilədək kurort mövsümi işləmişdir və 1957-ci ildən il boyu fəaliyyət göstərməyə başlamışdır. Çarpayı sayı ildən ilə artan kurortda 1982-ci ildə Naftalan sanatoriya-kurort birliyi yaradılmışdır. 6 sanatoriya, kurort poliklinikasından ibarət kurort birliyində 3200 çarpayı var idi. Kurort birliyi il ərzində keçmiş sovetlər ittifaqının respublikalarından 50-70 min xəstə qəbul edirdi. Kurortda sümük-əzələ, periferik sinir, periferik damar xəstəlikləri, dəri xəstəlikləri, ginekoloji xəstəliklər müvəffəqiyyətlə müalicə olunurdu. 1992-ci ildən 2005-cı ilədək yalnız "Çinar" sanatoriyası mövsümi olaraq xəstə qəbulu ilə məşqul olurdu. 2005-ci ilin may ayında Naftalan kurortunda ilk özəl sanatoriya – Naftalan – açıldı. Mərkəz 100 nəfərlik yataq korpusundan müalicəxana və yeməkxanadan ibarətdir. Mərkəzə müraciət edənlər ilk növbədə hərtərəfli laborator və instrumental müayinədən keçirlər və xəstəliklərinə müvafiq olaraq naftalan müalicəsi və müasir fizioterapiya müalicə üsulları qəbul edirlər. Mərkəzdə xəstələrin istirahəti, qidalanması və uğurlu müalicəsi üçün lazım olan hər bir şərait mövcuddur.

{Naftalan adının etimologiyası Naftalan adının etimologiyası "süzülən" və ya "axıb gedən" mənasını verən "nafta" sözündəndir. Midiyalılar yağı bu cür adlandırırdılar.

İlk öncə kurortun iqlimi, coğrafi mövqeyi və s barədə danışaq.

Naftalan kurortu Bakıdan 338 kilometr qərbdə yerləşir.Naftalan kurortu Qafqaz sıra dağlarının ətəyində, dəniz səviyyəsindən 220 – 250 metr yüksəklikdə qərar tutmuşdur.Kurortun iqlimi mülayim – tropikdir. Orta illik temperatur müsbət +14 dərəcə Selsidir.Yağıntılar az miqdarda olub, ildə 100 – 250 millimetr təşkil edir.Az küləklidir.Küləklər əsasən musson xarakterli şimal – qərb küləkləridir.Kurort insan əli ilə salınmış, əsasən şam ağaclarından ibarət meşə parkda yerləşmişdir. Bunun nəticəsində kurortun havası təmizdir."Naftalan Sanatoriyası" – nın tərkibində 3050 yerlik sanatoriya kompleksi tikilsə də , bunun 2000 – dən çox yerində məcburi küçkünlər yerləşmişdir

**Şəfa mənbəyi kimi Naftalan nefti**

Naftalan nefti respublikamızın ən qiymətli təbii sərvətlərindən biridir.Ta qədimdən indiyə kimi saysız-hesabsız xəstə bu neftin şəfaverici keyfiyyətindən bəhrələnmişdir.Müalicəvi xassələrə malik olan Naftalan nefti sümük – oynaq, dəri, qadın xəstəliklərindən və uroloji xəstəliklər, əsəb, genikoloji, uroloji və dəri xəstəliklərinin, eləcə də qara ciyər xəstəliklərinin,oynaqların və dayaq hərəkət aparatına aid olan oynaqdan kənar yumşaq toxumaların müalicəsi üçün müstəsna vasitə kimi bütün dünyada məşhurdur. Elə buna görə respublikamızın şəhər və rayonlarından hər il çoxlu sayda xəstə bura pənah gətirir. Həmçinin Naftalan nefti güclü iltihabəleyhi,ağrıkəsici,allergiyaəleyhi və hormonabənzər. təsirlərə malikdir. Trofik və mubadilə proseslərini stimulə edir,ovogenezi və spermatogenezi surətləndirir. Bu mualicəvi xususiyyətlərinə gorə naftalan nefti ilə 70-dən artıq xəstəliyin muvəffəqiyyətli mualicəsi mumkundur.

Təsadüfi deyildir ki, qədim rəvayətə görə Medeya adlı cadügar qadın qədim yunan eposunun qəhrəmanı arqonaft Yasona qəribə bir məlhəm bağışlamışdır. Bu məlhəm onu oddan və yanğından qoruyur, bədəninə alov təklükəsi olmamaq xassəsi bəxş etmişdir. Hələ qədim zamanlardan Asiyanın müxtəlif güşələrindən, eləcə də uzaq Hindistandan Azərbaycana üz tutan minlərlə adam müxtəlif xəstəliklərdən xilas olmaq üçün buradan Naftalan nefti aparır, öz vətənlərində həmin neftin köməyi ilə müalicə olunurdu.Neft tuluqları yüklənmiş dəvə karvanları buradan Şərq ölkələrinə yollanırdı. Naftalan nefti dünyada yeganə neft olub öz müalicəvi əhəmiyyətinə görə əfsanəvi xarakter daşımaqla fiziki-kimyəvi xassəsinə görə başqa neftlərdən fərqlənir. Bu neft üçün əsas xarakter yüksək xüsusi çəkiyə (d420=0,9395 q) malik olması, tərkibində yüngül fraksiyanın və bərk parafin karbohidrogenlərin olmamasıdır. Tərkibində kifayət miqdarda qətran (14% ) olması su ilə möhkəm emulsiya əmələ gətirməsi naftalan neftini başqa neftlərdən fərqləndirir.Müalicəvi xassəsinə görə dünyada yeganə neft olan Naftalan nefti Azərbaycan Respublikasında Gəncə şəhərindən 50 km aralı Murov dağ silsiləsinin ətəyində yerləşir.



Azərbaycan Elmi Tətqiqat Aşqarlar Kimyası İnstitutunun direktoru, mərhum akademik Ə.M.Quliyev, mərhum akademik Yusif Məmməd Əliyevin Naftalan nefti haqqında söylədiyi nəzəriyyəni əsas götürərək bu ecazkar neftin kimyəvi tərkibinin hər tərəfli tədqiq olunmasını qarşısına məqsəd qoymuşdur.

Bioloji tədqiqat və həkimlərin müxtəlif xəstəlikləri müalicə etməklə müəyyənləşdirdilər ki, Naftalan neftindən ayrılan naften karbohidrogen qrupu bu neftin ən aktiv bioloji komponenti olub müalicə üçün tətbiqində ilk müalicəvi təsir edən naften karbohidrogenləridir.Naften karbohidrogen qrupu orqanizmin bütün-fizoloji funksiyasına müsbət təsir etməklə toksiki xassə göstərmir. Gəncə şəhərində "Naftalan Sağlamlıq Mərkəzində" (2006-cı ildən fəaliyyət göstərir) dünya şöhrətli naftalan nefti ilə eləcə də Naftalan neftindən otaq temperaturunda ayrılmış bioaktiv maddə olan müalicəvi naften yağı ilə müxtəlif xəstəliklər o cümlədən:





**Sümük əzələ sistemi xəstəlikləri** – revmatik, artrit, poliartritlər, osteoartrit, osteoartrozlar, travmatik artritlər, spondiloz, spondiloartroz, osteoxondroz, angiloziriyuşiy spondiloartrit, (bexterev xəstəliyi) spondilit, miozit, tendovaginit, epikondilit, sümük sınaqlarının fəsadlarının müalicəsi, yanıqların fəsadlarında, xroniki osteomielit, oynaqların kontrakturasında və dyupyuitren sindromunda, trofiki yaralarda.

**Dəri xəstəlikləri** – psoriaz, heyrodermit, dəmirov, ixtioz, keratodermiya, ekzema, seboreya, allergik dermatitlər,

**Qadın cinsiyyət organlarının xəstəlikləri** – xroniki salpingit, oforit (salpingooforit), parametrit, çanaq organlarının spaykasında, endometrit, infantilizim, uşaglığın hipoplaziyasında, uşaqlığın düzgün olmayan vəziyyətində, yumurtalıgların funksional pozğunluğunda, menstrual siklin pozulmasında, amenozeya, qadın sonsuzluğu, uşaqlıq boynunun eroziyası.

**Kişi cinsiyyət organlarının xəstəlikləri** – kişi sonsuzluğu, xroniki prostatit, uretritlər, xroniki sistit.

**Mədə bağırsaq sistemi xəstəlikləri** – xroniki qəbzlik, metiorizm, həzmin pozulması;

**Damar xəstəlikləri** – aşağı ətraf arterial damarların ateroskIrozu, obliterasiyaedici endarterit gan dövranı pozğunluğunun I-II dərəcəsi,aşağı ətraf vena damarlarının varikoz genişlənməsi, flebiti, tromboflebiti.

**Dayaq** – hərəkət aparatının və sümük əzələ sisteminin xəstəlikləri – Revmatik artrit və poliartrit – Podaqra poliartriti – Brusellyoz poliartriti -Posttravmatik poliartrit – Deformasiyaedici osteoartroz – Onurğa sutununun osteoartrozu – Onurğa sutununun spondillyozu -Bexterev xəstəliyi – Miozit və mialgiyalar – Bursit və tendovaginitlər – Miofassitlər

**Periferik sinirlərin xəstəlikləri** – Nevrit və nevralgiyalar -Radikulit və pleksitlər

**Periferik damar xəstəlikləri.** – Aşağı ətrafların bliterasiyaedici endarteriti və obliterasiyaedici aterosklerozu – Aşağı ətrafların varikoz damar genişlənməsi -Aşağı ətrafların səthi və dərin venalarının tromboflebiti -Reyno xəstəliyi

**Dəri xəstəlikləri** – Psoriaz – Ekzema – Neyrodermit – Allergik dermatitlər

**Ginekoloji xəstəliklər** – Qadın cinsi sferasının iltihabi xəstəlikləri (adneksit, salpinqooforit, parametrit, perimetrit, metrit və s. ) – Yumurtalıqların disfunksiyası – Birincili və ikincili sonsuzluq – Çanaq peritonial bitişmələr

**Androloji xəstəliklər** – Xroniki prostatitlər – Uretrit – Sonsuzluq

O cümlədən: Gəncə Naftalan Sağlamlıq Mərkəzində yuxarıda qeyd olunan xəstəliklərin müalicəsi Naftalan vannaları, işıq müalicəsi, Yod-bromvannaları, masaj və s.prosedurаların köməyilə yüksək səviyyədə aparılır.

**Ağ naftalanla müalicə** — müalicəvi naften yağı ilə tromboflebitin, radikulitin, qızıl yelin, burun – qulaq və boğaz xəstəliklərinin müalicəsi, ağız boşluğunda əmələ gələn səpkilər və qızartıların müalicəsi, dişlərin dibinin iltihablaşmasında müalicə aparılır.Ən maraqlı hadisələrdən biridə Gəncə şəhərində fəaliyyət göstərən naftalan sağlamlıq mərkəzində müalicəvi naften yağı ilə zob və mədəaltı vəzilərin funksiyası pozulduqda ona qarşı effektli müalicələr aparılır.

Bu bioaktiv maddə zədələnmiş sinirin rengenerasiyasını tezləşdirir, sinir liflərinin keçiricilik xassəsini bərpa edir, hərəkət pozulmalarını aradan qaldırır, vegetativ sinir sisteminin (parasimpatik şöbə) ağrı hissiyyatı həddini və oyanma xassəsini yüksəldir, liflərin regenerasiyasına köməklik edir, bakteriostatik xassəyə malikdir. Damarları genişləşdirməklə yaranın ətrafında qan dövranını yaxşılaşdırır. Mədə və onikibarmaq bağırsaq yaraları olan xəstələr 18-20 gün ərzində müalicəvi naften yağı qəbul etdikdə yarası tam sağalır.Müalicəvi naften yağı kimi yanıq xəstəliyini çox yüksək səviyyədə müalicə edir;

Geniş naften karbohidrogen qrupunun 420-500, 500-5250 C temperatu-runda qaynayan fraksiyalarında müəyyən edilmiş bioloji aktiv və optiki xassəyə malik olan birləşmələrdən birinin quruluşu. ***az.wikipedia.org***

# “SEHRLİ NAFTALAN” HEYƏTİNİN ŞƏFQƏTİ “NAFTALAN”DAN DA ŞƏFALIDIR!

